**Rüşvət və korrupsiya ilə bağlı öhdəlik**

Qərbi Kaspi Universiteti şəffaflıq və dürüstlük aktına layiqincə cavab verməkdə davam edir. Universitetdəki mövqeyindən asılı olmayaraq, universitet fəaliyyəti ilə bağlı hər hansı bir rüşvət və ya korrupsiya cinayətinə yol verən hər kəs üçün müvafiq qurumlara məlumat veriləcək və onlar Universitetin daxili nizamnaməsinə və milli qanunvericiliyə əsasən cəzalandırılacaqdırlar.

Qərbi Kaspi Universiteti qanunazidd hərəkətlərin hər hansı bir növünün qarşısını almaq üçün bəzi tədbirlər görür:

- Universitet daxilində potensial risk sahələri müəyyənləşdirilir
- Bütün şöbələr və fakültələr tərəfindən həyata keçirilən universitetin bütün fəaliyyətləri üçün dəqiq qeydlər və hesabatlar aparılır
- Universitetdə olan proseslərin ildə iki dəfə effektiv şəkildə izlənməsi və qiymətləndirilməsi üçün Nəzarət və Təftiş qrupu fəaliyyət göstərir

Qərbi Kaspi Universiteti, Universitet adından fəaliyyət göstərən hər hansı bir şəxsin saxtakarlıq etməsinə yol verməmək üçün aşağıdakı bəyanatı bütün işçi heyətinin korporativ elektron poçtlarına əlavə etmişdir: “Bu elektron poçtu göndərən tərəfindən ifadə edilən fikir, rəy və təkliflər mütləq şəkildə Qərbi Kaspi Universitetinin fikirləri olmaya bilər.”

Öhdəliyə görə, əgər Siz rüşvət və korrupsiya ilə əlaqəli hər hansı bir qanunsuz hərəkətlə qarşılaşsanız, çəkinmədən Hüquq Xidmətlərinə məlumat verməyiniz xahiş olunur. Qanunsuz və ya şübhəli davranışlara əsaslanan bütün açıqlamalar anonimliyini qoruyur.